https://doi.org/10.59849/3006-2403.2025.2.76

***Pərvin AHƏNÇI***
***Bakı Ali Neft Məktəbi***
***AMEA A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutu,***
***tarix üzrə fəlsəfə doktoru, dosent***
***E-mail:ahanchiparvin@gmail.com***

***Hökümə AĞAYEVA***
***İçərişəhər'Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin Elmi Mədəni Mərkəzi***
***E-mail: elmikom@inbox.ru***

# AZƏRBAYCANDA ŞƏRQ İNTİBAHI DÖVRÜNÜN ARXEOLOJİ VƏ ETNO-MƏDƏNİ İRSİNƏ DAİR TƏDQİQATLAR

*Açar sözlər:* Şərq İntibahı dövrü, Azərbaycan şəhərlərinin arxeoloji tədqiqatları, Nizami Gəncəvi, “Xəmsə”, etno-mədəni irs

Giriş. Dünya şöhrətli mütəfəkkir Nizami Gəncəvinin yaradıcılığı Şərq İntibahı dövrünə təsadüf edir. Həmin dövrdə zəngin maddi və etno-mədəni irs inkişaf etdirmiş Azərbaycanın qədim şəhərlərindən olan Bakı, Bərdə, Beyləqan, Dərbənd, Gəncə, Naxçıvan, Şabran ərazilərində XX–XXI əsrlərdə aparılmış arxeoloji tədqiqatların nəticələri bir sıra sanballı elmi əsərlərdə öz əksini tapmışdır. Nizami Azərbaycan xalqının etno-mədəni irsinin dəyərlərini və ənənələrini “Xəmsə”ni təşkil edən poemalarında əks etdirmişdi. Müasir zamanda aktuallığı ilə seçilən həmin əsərlər hələ mütəfəkkirin sağlığında Şərq ölkələrində yayılaraq müəllifə şöhrət qazandırmışdı.

X–XII əsrlərdə Azərbaycan Şərq İntibahı dövrü, yaxud “Şərq renessansı” – mədəniyyətin çiçəklənmə dövrünə mühüm töhfələr vermişdi. Şərq İntibahı dövründə mədəni, iqtisadi əlaqələrin möhkəmlənməsi bütün Şərq ölkələri üçün ümumi tarixi proseslərin və birgə mədəniyyətin inkişafına təkan verdi. Həmin dövrün parlaq nümayəndəsi olan Nizami Gəncəvinin yaradıcılığı bir çox dahi alim, filosof, mütəfəkkir, memar və sənətkarların fəaliyyəti ilə paralel gedirdi. Əbu Əli İbn Sina, Biruni, Fərabi, Fərqani, Firdovsi, Nizami, Uluqbəy, Cami, Əcəmi təbii elmlər sahəsində kəşfləri, fəlsəfi və tərbiyəvi fikirləri insan şüurunda kəskin dönüş yaratdı.

Bəzi avropalı alimlər X–XII əsrləri Yaxın və Orta Şərq xalqlarının tarixində “Transformasiya” dövrü də adlandırırlar. Bunun əsas səbəbi kimi Məhəmməd Peyğəmbər (s.ə.s.) Məkkədən Mədinəyə keçidi ilə yaradılan ərəb-müsəlman dövlətinin 200 ildə böyük imperiyaya çevrilməsini, onun şərqində qısa bir zamanda Böyük Səlcuqlar dövlətinin güclənməsi ilə əlaqədar olaraq Xilafətdə türk elementlərinin geniş yayılması ilə əlaqələndirirlər [Мусульманский мир 950–1150, 1981: 3–4].

Səlcuq türklərinin, eləcə də Azərbaycanın yerli türk tayfaları da daxil olmaqla, Xilafətdə intibahın yaranmasında ən əhəmiyyətli rolu türk hərbi quruluşu ilə olan əlaqəsi olmuşdu. Belə ki, bütün Xilafətdə söz sahibi olaraq üç əsas aparıcı qüvvə formalaşmışdı: sənətkarlar, tacirlər və ziyalılar – üləma. Dahi mütəfəkkir Nizami sonuncu qrupa – “əhli üləma”ya, yəni alimlərin alimlərinə daxil olub Xilafətdə bəxş edilən “Şeyx” tituluna malik olan nadir şəxsiyyətlərdən idi.

Şərqdə olduğu kimi, Nizami Gəncəvinin yaşadığı tarixi dövr Azərbaycan şəhərlərində sənətkarlığın, şəhərsalma mədəniyyətinin inkişafı, onların ticarət yollarında əhəmiyyətinin artması, elmi, ədəbi mühitin dünyada tanınması ilə səciyyələndirilir. Məhz İntibah dövrünün

nəticəsi olaraq Şərq ölkələri sisteminin həlqəsini təşkil edən Azərbaycanda da siyasi, iqtisadi, mədəni həyatda yüksək nailiyyətlər əldə edilmişdir.

Bu dövrdə siyasi və hüquq elmləri, yaradıcı insanı tərənnüm edən ədəbiyyat və incəsənət, tibb, fəlsəfə, yeni ictimai şüur yarandı. İntibah dövrünün xadimləri ilk dəfə olaraq bütün maddi-mənəvi nailiyyətlərin yaradıcısı, zəngin mənəvi aləmə malik olan "kamil insan"ı önə çəkdilər. Bununla da öz əsərlərində yeni çiçəklənən dövrün ən güclü varlığı məhz "yaradıcı insan"ın yetişməsini təbliğ edirdilər.

Nizaminin "Xəmsə" incilərini təşkil edən "İsgəndərnamə"nin hər iki hissəsi – "Şərəfnamə", "İqbalnamə" – "Siyasətnamə" və "Kabusnamə" ilə bərabər yüksək ideya və bədii dəyərləri ilə Şərq aləmində layiqli yer tutur.

AZƏRBAYCANDA ŞƏRQ İNTIBAHI DÖVRÜNÜN ARXEOLOJI TƏDQIQATLARI

Çar Rusiyası Cənubi Qafqaza özünün xarici və daxili siyasətində mühüm əhəmiyyət kəsb edən strateji region hesab edirdi. I Pyotrun 1722–1723-cü illərdəki Xəzəryanı bölgələrə hərbi yürüşündən başlayaraq aqressiv ekspansionist siyasəti yürüdən Rusiya imperiyası XIX əsrdə Rusiya–Osmanlı və Rusiya–İran müharibələri silsiləsi nəticəsində müxtəlif etno-konfessional tərkibli Qafqaz xalqları üzərində hakimiyyətini qurdu.

Çar hökuməti hərbi əməliyyatlarla yanaşı, Cənubi Qafqaz bölgəsində öz təsirini gücləndirmək məqsədilə Bakıda neft bumunu stimullaşdıran çoxsaylı sosial-iqtisadi islahatlara, müsəlman əhalisinə nəzarəti gücləndirmək üçün şiə və sünni ruhani idarələrinin yaradılmasına və eyni zamanda arxeoqrafik, etnoqrafik tədqiqatların da aparılmasına diqqət yetirmişdir. 1871-ci ildə Rusiya çarizmi tərəfindən yaradılmış Qafqaz Arxeoqrafiya Komissiyasının tədqiqatlarının nəticələri "Qafqaz Arxeoqrafiya Komissiyasının aktları" (QAKA) silsilə şəklində çap etdirilmişdi.

Şeyx Nizami dövründə mövcud olan bəzi şəhərlərin arxeoloji tədqiqatları eyni olaraq XIX–XX əsrin ilk onilliklərində İranda – Cənubi Azərbaycanın ərazisində alman arxeoloqları tərəfindən həyata keçirilmişdi. Almaniyanın Arxeologiya İnstitutunun əməkdaşı Rudolf Nauman Təxti-Süleyman abidəsində Sultan Səncərin mərkəzi şəhər yerinin qalıqlarını aşkar etmişdi [Wiet, 1947: 210]. Sonrakı illərdə Azərbaycan arxeoloqları tərəfindən Örənqala ərazisində (Beyləqan rayonu) qazıntılar zamanı aşkar edilmiş keramika məmulatlarının hazırlanma texnologiyası və funksional xüsusiyyətlərinin Təxti-Süleymandan tapılan arxeoloji artefaktlarla analoji olduğu təsdiqlənmişdi.

Nizaminin "İskəndərnamə" əsəri Şabran şəhəri haqqında maraqlı məlumatları əks etdirir. Şabran limanı orta əsrlərdə Xəzər dənizinin qərb sahillərindən keçən ticarət karvan yolu üstündə yerləşən Şabran torpaqlarına daxil olmuşdu. Şəhərdə davamlı arxeoloji qazıntılar XX əsrin 80-ci illərində arxeoloq R.Göyüşov tərəfindən aparılmışdır [Геюшев, 1980]. İndiyədək beş min kv.metrdən çox sahədə aparılmış qazıntı işləri zamanı 6,2 m qalınlıqda mədəni təbəqələr aşkar olunmuşdur. Qazıntılar zamanı ictimai və yaşayış binalarının qalıqları, mədəni-məişət tikililəri və xeyli sayda istehsalat ocaqları aşkar edilmişdir. Şabranda əsas tikinti materialları kimi çiy və bişmiş kərpiclərdən, çay və ağ daşlardan istifadə edilmişdir [Məmmədov, 2008: 130-134].

Arxeoloji qazıntılar nəticəsində İpək yolunda əhəmiyyətli rol oynamış Şabran şəhəri haqqında Nizaminin maraqlı fikirləri öz təsdiqini tapmışdır. Şair "İskəndərnamə" əsərində şabranlıların qorxmaz, onlarla birgə yadelli hücumlara qarşı mübarizə aparan igid Fəribürz hökmdarını təsvir edir.

Məclisdə vardı bir adlı pəhləvan,
Həsəbi, nəsəbi, Zəngə-Şaviran,
Adı Fəribərzdi, gövdəsi bir dağ,
Vücudu poladdı, qolu bir çomaq.
[Nizami Gəncəvi, "İskəndərnamə", 1983: 127]

Şərq İntibahı dövründə mühüm rol oynamış Bərdə şəhəri tarixi mənbələrdə Partav, Firuzabad, Berdaa və s. adlarla məlumdur. Şəhərin tarixi adlarından birinin Hərum olması barədə Nizami Gəncəvi "İsgəndərnamə"də qeyd edir:

Hərum adlanırdı bu yurd hər yerdə,
İndisə adına deyirlər Bərdə.
Bu mərdlər, gözəllər yurdunda, inan,
Çox saysız xəzinə gizləmiş zaman.
Belə şux, sevimli gülşən harda var?
Harda var xəzinə saçan bu diyar?
[Nizami Gəncəvi, "İsgəndərnamə", 2004: 207-209]

Orta əsrlərdə Bərdə şəhəri Tərtərçayın sol sahilində yerləşirdi. Bu şəhərin tarixi və arxeoloji araşdırmaları rus şərqşünası N.V.Xanıkov, B.Dorn, N.O.Silosani tərəfindən başlanmışdı. Akademik B. Dorn Bərdədə qədim yaşayış yerinin mövcud olmasını xüsusilə qeyd etmişdi [Дорн, 1875: 473-476]. Qeyd etmək lazımdır ki, Bərdədə qazıntı işləri aparmış hər iki tədqiqatçı-alim ixtisasca arxeoloq deyildilər. 1881-ci ildə N.O.Silosaninin rəhbərlik etdiyi arxeoloji ekspedisiya Bərdə şəhərinin xarabalıqlarının kiçik sahəsində tədqiqatlar aparmışdı [Цилосани, 1882: 495-498].

XX əsrin 50–60-cı illərində V.İ.Qarnikin rəhbərliyi ilə Bərdə şəhər yerində arxeoloji-kəşfiyyat işləri aparılmışdı [Гарник, 1960: 1029-1032]. XX əsrin 70-ci illərindən Bərdənin Satırlı kəndi yaxınlığındakı Şortəpə adlı ərazidə aparılan arxeoloji araşdırmalar zamanı aşkar edilən maddi-mədəniyyət nümunələri burada orta əsrlərdə Bərdə şəhərinin bəzi hissələrinin yerləşməsini aşkar etmişdir.

Arxeoloq A.Nuriyev 1984–1989-cu illər ərzində qədim Bərdə şəhərinin araşdırılması məqsədilə arxeoloji qazıntı işləri aparmış və 1984-cü ildə Bərdə rayonunun Şatırlı kəndi yaxınlığında üzərində alban əlifbası ilə yazılar olan insan fiqurlu qədim məzar daşı abidəsini aşkar etmişdir. Qazıntıların nəticələri "Orta əsr Bərdə şəhəri" adlı kitabda və çoxsaylı məqalələrdə öz əksini tapmışdır [Нуриев, 1986; Nuriyev, Babayev, 2001: 3-8].

Ümumilikdə N.Gəncəvinin "İskəndərnamə" poemasındakı Makedoniyalı İsgəndərin Bərdədə olması məsələsi hələ də elmdə sual olaraq qalmaqdadır. Məsələn, A.Krımskiy İsgəndərin Bərdə şəhərində olması fikrini qəbul etmir [Крымский, 1981: 43]. Arxeoloqlar A.Nuriyev və Ə.Babayevin fikirlərinə əsasən: "... iki dahi şairin (Firdovsi, Nizami) Bərdə haqqında bizim eradan əvvəli hadisələrlə bağlı bəhs etməsi təsadüfi deyildi. Doğrudur, tarixi faktlar müəyyən dərəcədə şair təxəyyülü ilə əbədiləşdirilə, təhrif edilə bilər, lakin şübhəsiz, burada İskəndərin Bərdədə olub-olmamasından asılı olmayaraq, şəhərin qədimliyinə dəlalət edən, qismən də olsa tarixi həqiqət ehtimal etməyə nail olmuşdular. Akademik X.Fren göstərir ki, artıq miladi tarixilə 490-cı ildə Bərdə şəhərində (Partavda) yepiskop fəaliyyət göstərirdi. Akademik Dorn isə Brossenin 1869-cu ildə Sankt-Peterburqa həsr olunmuş əsərinə istinad edərək şəhərin miladi tarixi ilə 500-cü ildə bina edildiyini göstərir [Nuriyev, Babayev, 2001: 14-15].

Müəlliflərin fikrincə, Nizaminin təsvir etdiyi Nüşabə ilə İsgəndərin görüşdüyü və təsviri verilən süfrənin qabları barədə olan maraqlı faktlar qazıntılar zamanı aşkar edilən dulus nümunələri ilə eynilik təşkil edir. X-cu əsrin birinci yarısında qədim rusların Qafqaza etdiyi çoxsaylı hərbi təcavüzlər nəticəsində Bərdə şəhərinin viran edilməsini Nizami Gəncəvi aşağıdakı kimi təsvir edir:

Gördüyün o Bərdə olmuşdur viran,
O zəngin şəhərdən qalmamış nişan.
Gözəl Nüşabəm almışlar əsir, işrət qədəhim qırmışlar bir-bir.
Sarayda görmüşdün o qədər gəlin,

Onlardan qalmamış heç bir nazənin.
Vurmuş bir-birinə kəndi, şəhəri,
Atəşdə yandırmış şən ölkələri.
[Nizami Gəncəvi, "İsgəndərnamə", 2004: 319]

Arxeoloqların ümumi rəyinə görə "Bərdənin şəhər kimi formalaşmasının" II dövrü XI-XIII əsrlərə aid edilir [Nuriyev, Babayev, 2001: 34-35; Нуриев, Мамедов, Хасилов, 1988: 82]. Belə ki, mədəni təbəqənin tikinti qalıqları, metal, şirsiz və şirli saxsı nümunələri, zəngin şüşə qab-qacaq, daş, sümük və s. artefaktlar Bərdə şəhərinin orta əsrlərdə yüksək inkişaf etmiş, nisbətən iri ticarət və sənətkarlıq mərkəzi olmasını təsdiqləyirlər. Arxeoloqlar bu təbəqədən yerli sənətkarlar tərəfindən hazırlanmış məişət və təsərrüfatda işlənən qablarla yanaşı Çin, Suriya, İran ərazisindən gətirilmə qab nümunələri də aşkar olunmuşdur. Bu faktlar şəhərin digər qonşu, eləcə də uzaq ölkələrlə müəyyən ticarət əlaqələri mövcud olduğundan bəhs edir.

Şərq İntibahı dövründə Azərbaycanın digər qədim şəhərləri sırasında Şeyx Nizaminin anadan olduğu, yazıb yaratdığı və öz əsərlərinin imzasındakı təxəllüsü ilə dünyaya tanıtdığı Gəncə şəhəri mühüm yer tuturdu. Təsadüfi deyildir ki, Cənubi Qafqazda Gəncə-Qarabağ mədəniyyəti adı ilə məlum olan zəngin arxeoloji mədəniyyətin mərkəzi bölgələrindən birini Gəncəçay vadisi, o cümlədən Gəncənin ərazisində aşkar olunan arxeoloji abidələr təşkil edir [Məmmədov, 2008: 139].

X əsrin ortalarında bəzi ərəb müəllifləri bu şəhər haqqında geniş məlumat verir, hətta XIV əsrdə Həmdullah Qəzvini Gəncəni "Arran şəhərlərinin anası" adlandırır. XI-XIII əsrin əvvəlləri Gəncə yüksəliş dövrünü yaşamaqda idi. Həmin yüksəliş və çiçəklənməyə nail olmuş şəhər XII əsrdən başlayaraq qıpçaq, gürcü, Orta Asiyadan Xərezmşahlar, sonra da monqolların mütəmadi hücumlarına məruz qalmışdı.

Gəncə şəhərinin arxeoloji araşdırmaları XIX əsrin sonlarından başlamışdı. 1891-ci ildə E.A.Resler, 1903-cü ildə Q.O.Rozendorf, 1905-1907-ci illərdə R. A. Skinder Qarabağ və Gəncəçay hövzəsini əhatə edən və epizodik xarakter daşımış arxeoloji qazıntılar aparmışdılar [Cəfərov, Cəfərova, 2020: 29].

Arxeoloq A. Məmmədovun Goranboy rayonunda apardığı yeni arxeoloji qazıntıların məlumatlarına əsasən, Həmərli kəndinin Atabəylər dövlətinin hökmdarı Məhəmməd Cahan Pəhləvan tərəfindən Nizami Gəncəviyə hədiyyə edilmiş Həmdünyan kəndi olduğu həm də yazılı mənbələrə əsasən təsdiqini tapmışdı. Nizami dövrünə aid xeyli sayda maddi-mədəniyyət qalıqları, müxtəlif metal əşyalar, həmçinin numizmatik materiallar, tikinti qalıqları aşkar edilmişdi. Tikinti qalıqları bir çox parametrlərə görə ictimai binalara aid olub, əsasən yerli çiy kərpicdən hörülmüşdü.

Nizami Gəncəviyə Həmdünyan kəndinin hədiyyə edilməsini şair "Xosrov və Şirin" əsərində təsvir edir:

Həmdünyan kəndini mənə bəxş etdi.
Verdi öz əlimə yazılı fərman,
Qızıl şahın möhürü üstündə əyan:
Biz bəxş eyləmişik bu kəndi ona,
Çatsın Nizaminin öz övladına.
Əvəzsiz verilmiş ona bu dövlət,
Qiyamətə kimi onundur, əlbət.
[Nizami Gəncəvi, "Xosrov və Şirin", 2004: 283]

Azərbaycan xalqının etno-mədəni irsi Nizami Gəncəvinin "Xəmsə" əsərində

Nizaminin əsərlərində Azərbaycan xalqının təsərrüfat, məişət həyatı, qədim köklərə söykənən adət-ənənələr, toy-yas mərasimlərinin xüsusiyyətləri öz əksini tapmışdı. Şair rəngarəngliyi ilə fərqlənən Novruz bayramını nəfis şəkildə təsvir edir:

Novruz ilə Səddə bayramlarında,
Ayinlər yenidən olurdu bərpa.
Ər üzü görməmiş gəlinlər, qızlar
Evindən sevinclə dışarı çıxar.
Əllər al xınalı, üzlər bəzəkli,
Hər yandan gəlirdi coşqun ürəkli…
Atəşdən mövludun əfsunlarından
Tüsdən don geyər uca asiman.
[Nizami Gəncəvi, “İskəndərnamə”, 1983: 171]

Burada xanımların simasında cəmiyyətin bütün üzvlərinin bayram günlərində gözəl paltarlar geyinməsini, bir-birinin evinə qonaq gedib bayramlaşmaqlarını və Novruz çərşənbələrində tonqalların yandırılmasını bəhs edilir.

Şair Novruzu ən böyük bayram günü sayır [Nizami Gəncəvi, “Leyli və Məcnun”, 1981: 43], yaxşı günlərini Novruz gecəsi ilə [Nizami Gəncəvi, “Xosrov və Şirin”, 1981: 98], gözəlliyi onunla müqayisə edir [Nizami Gəncəvi, “Yeddi gözəl”, 1983: 155]. “İskəndərnamə” poemasında isə İskəndəri qarşılayan Nüşabə tonqal qaldırdığını, süfrəyə müxtəlif növlü meyvə və şirniyyat düzdüyünü göstərir [Nizami Gəncəvi, “İskəndərnamə”, 1983: 215-216].

Nizami Gəncəvi “İskəndərnamə”nin “Hindli həkimin İskəndərlə söhbəti”ndə Hindli həkim, xalq inancından birini təşkil edən, üzərrik yandırmaqla bəd nəzəri aradan qaldırmaq inancından söhbət açır:

Üzərrik yaxarlar göz dəyən üçün,
Od yaxıb-yandırar dərdi büsbütün.
Başqa alim isə belə şərh edir:
Üzərrik yananda tüstüsü gedir,
Qara pərdə kimi tutur havanı,
Qaytarır, rəf edir gələn bəlanı.
[Nizami Gəncəvi, “İskəndərnamə”, 1983: 97]

Şərq İntibahının xüsusiyyətlərindən biri də sənətkarlığın bütün növlərinin yüksək səviyyədə inkişaf etməsidir. Nizami Gəncəvinin əsərlərində Azərbaycanda dulusçuluq, metalişləmə və metallurgiya, zərgərlik, toxuculuq, misgərlik, xalçaçılıq və digər sənət sahələrinin inkişafından da bəhs edilir. Nizami sənətə yiyələnməyin vacibliyini vurğulayır və sənətkarlara yüksək qiymət verir:

Sənət öyrən, çünki sənətkarlıqla
Qapılar açmaq olur, bağlamaq yox!
[Nizami Gəncəvi, “Yeddi gözəl”, 1983: 48]

Sənətkarlığa xüsusi rəğbəti ilə fərqlənən Nizami Gəncəvinin “Xəmsə”sinə daxil olan əsərlərində müxtəlif peşələrlə bərabər, xalçaçılıq [Bünyadova Ş., 2002: 72-79], xalça və onunla bağlı olan digər məmulatların da adlarına rast gəlmək mümkündür [Bünyadova, 1992: 60-61]. Nizami Gəncəvinin xalçaçılığa dair məlumatlarına və toxuma prosesi ilə bağlı maraq doğuran fikirlərinə onun əsərlərində tez-tez rast gəlinir. Məsələn, şair “Xosrov və Şirin” poemasında yazır:

“Qarı arvadın dolandırdığı o cəhrə ilə
Dolanan çərxi müqayisə edə bilərsən.
Hərçənd ki, onu saz görərsən,
İlk dəfə fırlatmasan fırlanmaz.
Onu bilicinin əli fırlatsa,
O fırlanma bir neçə saat davam edər.”
[Nizami Gəncəvi, “Xosrov və Şirin”, 1981: 28]

Nizami qeyd edir ki, "yerə döşənən hər bir xalca palaz xalça olmaz" [Nizami Gəncəvi, "Xosrov və Şirin", 1981: 208]. Burada palazla xalçanın fərqli olduğu vurğulanır.

N.Gəncəvinin "Xosrov və Şirin" əsərində ipəkdən toxunan fərşin gül rəngində olması haqqında verilən təsvir istisnalıq təşkil edir. Şair yazır ki,

"Şah o gül rəngli ipək fərşin üzərindən
Atı sürüb qəsrə sarı yaxınlaşdı."
[Nizami Gəncəvi, "Xosrov və Şirin", 1981: 234]

Müəllif "gül rəngli ipək fərşin" şahın atının ayaqları altına sərilməsini deyərkən, hökmdara olan rəğbət, hörmət və etiramdan bəhs edir.

Nizaminin "İskəndərnamə" poemasında Nüşabənin dəbdəbəli sarayında qiymətli xalı döşənməsini təsvir etməsi orta əsrlərdə xalçanın müxtəlif növlərinin mövcud olduğunu və məişətdə mühüm yer tutduğuna dəlalət edir:

"Şəhanə sarayı çox ucadır,
İçində qiymətli xalça salınmışdır."
[Nizami Gəncəvi, "İskəndərnamə", 1983: 202]

Məlum olduğu kimi, hələ qədim zamanlardan bəri Azərbaycanda fərş, gəbə, kilim, sumax, vərni, zili, palaz, çul, çuval, məfrəş, xurcun, heybə toxunurdu. Göstərilən bütün bu məmulatların əksəriyyətinin adlarına N.Gəncəvinin əsərlərində rast gəlməyimiz təsadüfi deyildir. Şair "Sirlər xəzinəsi" poemasında isə üzərində namaz qılmaq üçün istifadə edilən "səccadə" adlı kiçik bir xalça növünün adını çəkir [Nizami Gəncəvi, "Sirlər xəzinəsi", 1981: 75]

"Yeddi gözəl" əsərində isə yazır:

"Ev sahibi seçmə döşəmələri,
Rum parçaları, nəfis Çin (ipəkləri)
Fərş-fərş gözəl xalılar -
Ki, onların parıltısından ürək və könüllər açılırdı.
Şahın xuraman xəti atının ayağı altına atdı."
[Nizami Gəncəvi, "Yeddi gözəl", 1983: 102]

N.Gəncəvinin əsərlərində musiqi alətləri və musiqi növləri ilə bağlı xeyli maraqlı məlumat vardır. Bura musiqili xalq el şənlikləri, müğənni və cürbəcür alətlərdə ifa edən sənətkarlardan ibarət ayrı-ayrı məclislər və onların növləri, həmçinin toy, dəfn adətləri, teatrlaşdırılmış tamaşalardan musiqilər, döyüşlərdəki və ov səhnələrindəki musiqi növləri sanki elə musiqi ilə birgə səsləndirilmişdi. Bu maraqlı problem Azərbaycan alimləri Q.Qasımov, Ş.Bünyadova, Ə.Əhmədov, S.Qurbanəliyeva, A.Bayramova və digər mütəxəssislər tərəfindən araşdırılmışdı.

Beləliklə, şair əsərlərində musiqi alətlərindən bərbət, gəns, ney, ud, təbil adlarını çəkir. Geniş tərkibli ansambllar adətən ümumxalq bayramlarında çıxış edirdi. Məsələn, dörd il sürən quraqlığın başa çatması münasibətilə keçirilən şənlikdə çalğıçılar iki fərsəng cərgədə düzülüb bərbət, rübab və çəngi səsləndirirdilər. Müxtəlif şəhərlərdən gələn və sırasında müğənni, çalğıçı, rəqqas və löbətbaz (hoqqabaz) olan altı min sənətçi dəstə-dəstə şəhər və kəndlərə yollanaraq xalqa sevinc bəxş edirdilər [Nizami Gəncəvi, "Yeddi gözəl", 1983: 94-95]. Bu rəqəmlər ilk baxışdan şişirdilmiş görünsə də, şair onun dövründə musiqiçi peşəsi ilə çoxlu sayda insanların məşğul olduqlarına işarə edir.

Nizaminin əsərlərində müəyyən hadisələrlə əlaqədar keçirilən musiqili məclislərə geniş yer verilir. Bu məclislər şah sarayında, şahların görüşü zamanı, müharibənin qələbə ilə başa çatması, qışın qurtarması və yaz mövsümünün qədəm qoyması, yuxarıda qeyd edildiyi kimi, quraqlığın qurtarması münasibətilə təşkil olunurdu. Bəhram şah yeddi gözəllə görüşəndə, onların söylədikləri əfsanələrdə belə məclislərə daha çox rast gəlmək olur. Onların adları da müxtəlif idi: ziyafət, kef, şadlıq, işrət, qonaqlıq, çalğı və badə. Bəzən də yolüstü məclislər

təşkil olunurdu [Abdullayeva, 2017: 6]. Xosrov dostları ilə əylənəndə, Şirinin rəfiqələri rəvayətlər söyləyəndə belə məclislərin keçirilməsi qeyd olunur [Nizami Gəncəvi, "Xosrov və Şirin", 1981: 58, 70]. Əlbəttə, şah məclisləri daha təmtəraqlı idi [Nizami Gəncəvi, "İskəndərnamə", 1983: 179].

Burada müxtəlif ölkələrdən dəvət olunan çalğıçılar, tanınan xanəndələr, rəqqasələr çıxış edirdilər [Nizami Gəncəvi, "Xosrov və Şirin", 1981: 100; Nizami Gəncəvi, "İskəndərnamə", 1983: 296, 449]. Musiqili məclislər dinləyicilərə böyük zövq verirdi. Onları adətən ərğənun və çəngin müşayiəti ilə çıxış edən müğənnilər və mütriblər rövnəqləndirirdilər [Abdullayeva, 2017: 6]. Şair qurulan məclislərin ölçüsünü də (altmış-altmışa, yəni uzunu və eni 60 dirsək – 30 m) verir [Nizami Gəncəvi, "Xosrov və Şirin", 1981: 274]:

Bərbətlə çəngin ikisinin də quş kimi nəğməsinin
Rəngli tük kimi bir-birinə uyuşdururdu.

Nizami dövründə muğamların "deyişmə" şəkilində ifa olunması mövcud idi. "Xosrov və Şirin" poemasında Şirin və Xosrovun dilindən Nəkisa və Barbədin növbə ilə sözləri qəzəl təşkil edən muğamların ifa səhnələri verilir [Nizami Gəncəvi, "Xosrov və Şirin", 1981: 278-290]. Əvvəlcə Nəkisa Şirinin istədiyi kimi "Rast" pərdəsində çəngin müşayiəti ilə qəzəl oxuyur. Sonra Barbəd setarın müşayiəti ilə mahnısını məst aşıq kimi "Üşşaq" pərdəsində oxuyur: Bitdi Nəkisanın çənglə nəğməsi, Barbədin setarı qaldırdı səsi. Bir məst aşiq kimi saza vurdu əl, "Üşşaq" pərdəsində oxudu qəzəl.

Nizami Gəncəvinin poemalarında toy məclislərinin Xosrovun Məryəm [Nizami Gəncəvi, "Xosrov və Şirin", 1981: 141] və Şirinlə [Nizami Gəncəvi, "Xosrov və Şirin", 1981: 298], İbn Səlamın Leyli [Nizami Gəncəvi, "Leyli və Məcnun", 1981: 129] və İskəndərin Rövşənəklə evlənməsi [Nizami Gəncəvi, "İskəndərnamə", 1983: 175] münasibətilə keçirildiyi qeyd edilir. Toy səhnələrinə, xüsusilə "Xosrov və Şirin" poemasında daha geniş yer verilib [Nizami Gəncəvi, "Xosrov və Şirin", 1981: 296-298]. Toy gününün münəccimlərin seçməsi qeyd edilir [Nizami Gəncəvi, "Xosrov və Şirin", 1981: 296]. Toy mərasiminin bütün mərhələlərini (qız seçmə, qız bəyənmə, elçilik, nişan – üzük taxma, kəbinin kəsilmə qaydası, xına yaxdı, qız evinə toy hədiyyələrinin göndərilməsi, gəlin bəy evinə yollananda onun başına xəzinə tökülməsi) təsvir edilir [Nizami Gəncəvi, "Xosrov və Şirin", 1981: 297; Nizami Gəncəvi, "Leyli və Məcnun", 1981: 131, 132]. Toy günü çalğıçıların müşayiəti ilə müğənnilərin mahnı oxumalarına, rəqs musiqisinə geniş yer verilməsi göstərilir.

Ayin və dəfn mərasimlərində musiqidən də istifadə edilirdi. Qəmgin günlərdə növhə, yəni hava ilə ölüyə oxunan hüznlü şeir deyilirdi. Məhin Banu Şirinin saraya gəlmədiyini görüb, gecə səhərədək növhə oxuyur. Zeyd Məcnunla növhə dediyi yerdə görüşür [Abdullayeva, 2017: 9]. Şirin Fərhadı böyük hörmətlə dəfn etdirir, türbəsi üzərində günbəz ucaldır, onu ziyarətgaha çevirir. Cahan Pəhləvanın vəfatı vaxtı nəfir, təbil və kusun sədaları hər tərəfə yayılırdı. Dəfn mərasimi təbilin səslənməsi ilə başlanırdı. Dəfn günündən sonra yas mərasimində rudun və sazın müşayiəti ilə ağılar deyilirdi. Leyli Məcnunun atasının ölümünə yas saxlayır, matəm paltarı geyinir. Xosrov Bəhram Çubinin ölümü ilə əlaqədar üç gün yas saxlayır. Onun özünü isə pars şahlarının ayini ilə qızıla, zərə tutulmuş tabutda məqbərədə dəfn edirdilər [Abdullayeva, 2017: 9].

Bir yanda şənlik üçün, bir yanda kədər üçün yer süpürüb
Bir yerdə rəqs edərlər, başqa yerdə baş döyərlər.
Bir yerdə müğənninin səsi ucalar,
Başqa yerdə ağıçı səsini ucaldar.
Sazdan, yanğıdan hər cür avaz ucalsa da
Bu gördüyün günbəzin altında bir qoza dəyməz.
[Nizami Gəncəvi, "Xosrov və Şirin", 1981: 144]

Nizaminin əsərlərində döyüş səhnələri olduqca canlı təsvir edilib. Burada döyüşçülərin hərbi geyimləri və silahların adları göstərilir, döyüşün başlanğıcını, gedişini və sonunu müşayiət edən musiqi alətlərinin adları çəkilir, onlardan çıxan sədalar bütün incəlikləri ilə verilir. Döyüşə hazırlıq şeypurun, təbilin, kus (kos) və zəngin və ya buğ, kus və döhülün [Abdullayeva, 2017: 9] səsləri ilə bildirilirdi. Ordu cərgəsi hərəkətə başlayanda təbillər çalınırdı. Qoşunun yürüşü zamanı isə təbillərin, kərənay (gərənay), nəfir, kusun və ya nay, təbil, dəray və cərəsin səsləri eşidilirdi. Hərbi döyüşlər bir qayda olaraq kusun və zəngin sədaları ilə başlanırdı [Abdullayeva, 2017: 9]. Şair döyüşün qızğın anlarını nəfəs və zərb alətlərindən çıxan səslərlə verir. Müharibə zamanı hərbi musiqini ifa etmək üçün istifadə edilən nəfəs və zərb alətləri döyüşdə böyük təsiredici gücə malik idi, ordunu qələbəyə ruhlandırırdı [Nizami Gəncəvi, "İskəndərnamə", 1983: 86]:

Xoruz qara qula qışqırdı
Təbillər yenidən nərəyə gəldi.
Şeypurların həyəcanlı gurultusu
Elə bil məhşərdə İsrafilin suru idi.

Orta əsrlərdə müharibənin bitməsi, sülhün elan olunması şeypurun çalınması ilə bildirilirdi. Döyüşü qələbə ilə başa vuran ordu hərbi musiqinin sədaları altında geriyə dönürdü [Nizami Gəncəvi, "İskəndərnamə", 1983: 101]. Şahlar yola düşəndə nay və kus səslənirdi [Nizami Gəncəvi, "Xosrov və Şirin", 1981: 230], şəhərə çatanda kus, təbil çalınırdı [Nizami Gəncəvi, "İskəndərnamə", 1983: 245].

Nizami Gəncəvinin əsərlərində müxtəlif xalq oyunları təsvir edilir. Onlardan bir sırasına nəzər salaq. "Xəyaloyunu" tamaşasını müğənni və iki çalğıçı müşayiət edirdi. Pərdə arxasında müxtəlif təsvirləri işıqlandıraraq onların kölgələrini hərəkətə gətirirdilər. "Xəyaloyunu" tamaşasını şair "İskəndərnamə"də bu cür təsvir edir:

Bu qədim pərdənin hiylələrindən
Xəyala döndüm, necə xəyalla oynamayım?!
[Nizami Gəncəvi, "İskəndərnamə", 1983: 58]

Toy və el şənliklərində "Məsxərə" komik oyunu göstərən məsxərəbaz [Nizami Gəncəvi, 1981: 58] müxtəlif peşə sahiblərinin və ayrı-ayrı millətlərdən olan surətlərin görkəmi, nitqi, davranışını mübaliğə, istehza şəklində nümayiş etdirərək gülüşə səbəb olurdu [Aslanov, 1984: 140]. Məsxərəbaz gecələr gəlinciklərlə bir neçə "Gecə oyunu" göstərirdi [Nizami Gəncəvi, 1981: 58].

"Şəbədə" [Nizami Gəncəvi, 1981: 47] tamaşası da istehza, təqlid etmə üzərində qurulurdu. Ancaq hərəkətlərlə icra olunan "Mücəssəmə"də isə [Nizami Gəncəvi, 1981: 47] tüfeyli həyat sürənlər və zalımlar lağa qoyulurdu [Bünyadova, 1992: 129].

"Üzük-üzük" oyunu [Nizami Gəncəvi, 1981: 128] adətən Novruz bayramında icra edilirdi. İki dəstədən ibarət olan oyunçuların sayına əsasən siniyə düzülən üzüqoylu fincanlardan birinin içində üzük gizlədirdilər. O biri dəstənin iştirakçısı üzüyü tapmağa cəhd edərdi. Üzüyü tapmayan iştirakçı cərimə əvəzi misdən hazırlanmış dairəvi yastı məcməyidə çalınan ritmə uyğun rəqs edir, bütün iştirakçılar isə ona əl çalırdılar. Bu oyun sonralar "Fincan-fincan" adı ilə Azərbaycanın müxtəlif bölgələrində keçirilirdi [Azərbaycan etnoqrafiyası, III cild, 2007: 403].

"Gözbağlayıcı" [Nizami Gəncəvi, "Leyli və Məcnun", 1981: 196; Nizami Gəncəvi, "Yeddi gözəl", 1983: 213] oyunda iştirakçılardan birinin gözünü yaylıq və ya dəsmalla bağlayırdılar. O, ətrafda dayanan və zınqırov səsləndirən, kiçik daşları və ya əşyaları çıqqıldadaraq yerini bildirən oyunçuları tutmağa çalışırdı. Onu tutduqda bu dəfə ələ keçən oyunçunun gözünü bağlayırdılar. Bu qayda ilə oyun davam edirdi [Azərbaycan etnoqrafiyası, III cild, 2007: 400].

"Kəndirbazlıq" oyununda kəndirin uclarından tutub hərə öz tərəfinə dartırdı [Nizami Gəncəvi, 1983: 61]:

Gah o, gah bu ipi dartıb çəkərdi,
Qüdrətə bax, gör neçə kəndirbazlıq edirmiş!

Beləliklə, dahi Nizami Gəncəvinin "Xəmsə" əsəri Azərbaycan xalqının maddi və mənəvi mədəniyyəti, dini inanc sistemi, islama əsaslanan fəlsəfi görüşləri və bununla əlaqəli insan həyatının utopist, xəyali arzuları olsa da, Azərbaycanın, Şərq İntibahı dövrü daxil olmaqla, siyasi, iqtisadi, sosial və mənəvi həyatının səhifələrinin araşdırılması üçün mühüm əhəmiyyət kəsb edən tarixi-ədəbi mənbədir. Nizami "İskəndərnamə" əsərində cəmiyyətdə humanist prinsiplərinin bərqərar olmasının daim axtarışında olduğundan, onun güclü, müdrük hökmdar arzusu müasir zamanda belə öz aktuallığını saxlamaqdadır.

ƏDƏBİYYAT


1. Abdullayeva S. Nizami Gəncəvi əsərlərində musiqili səhnələr. // Konservatoriya jurn, 2017, №1(35), s.5-13.
2. Aslanov E. El-oba oyunu xalq tamaşası. Bakı: İşıq, 1984.
3. Azərbaycan etnoqrafiyası. Üç cilddə. III cild. Bakı, "Şərq-Qərb", 2007, 568 s.
4. Bünyadova Ş. Azərbaycanın təsərrüfatı və maddi mədəniyyəti. XII-XVI əsrlər. Bakı: 2007, 360 s.
5. Bünyadova Ş. Nizami Gəncəvinin əsərlərində Azərbaycan xalçaçılığının əksi. // Azərbaycan arxeologiyası Xəzər Universiteti. №1-2, 2002, s.72-79
6. Bünyadova Ş. Nizami və etnoqrafiya. Bakı, Elm, 1992, 156 s.
7. Hidayət Cəfərov, Diana Cəfərova. Voldemar Belk, Emil Resler, Yakob Hümmelin Azərbaycanda (Qarabağ, Gədəbəy, Gəncəçay) arxeoloji qazıntıları. Azərbaycan Arxeologiyası Cild 23 № 2 2020. 22-35 Xəzər Universiteti Nəşriyyatı. DOI: 10.5782/2218-0346.2020.23.2.22.
8. Məmmədov A.M. Gəncə və onun ətrafının tarixi-arxeoloji tədqiqi (ən qədim zamanlardan XIX əsrə qədər), Gəncə, Elm, 2008, 296 s.
9. Nizami Gəncəvi. Xosrov və Şirin. Bakı: Elm, 1981, 374 s.
10. Nizami Gəncəvi. İskəndərnamə. Bakı: Elm, 1983, 650 s.
11. Nizami Gəncəvi. Leyli və Məcnun. Baki: Elm, 1981, 290 s.
12. Nizami Gəncəvi. Sirlər xəzinəsi. Baki: Elm, 1981, 247 s.
13. Nizami Gəncəvi. Yeddi gözəl. Baki: Elm, 1983, 360 s.
14. Nuriyev A., Babayev Ə. Bərdə şəhərinin tarixi-arxeoloji oçerkləri (antik və orta əsrlərdə) Bakı: Nurlan, 2001, 182 s.
15. Гарник В. Неизвестные памятники средневековой Барды /В.Гарник //Доклады АН Азерб. ССР.- 1960.- Т.XVI.- №10.- с.1029-1038.
16. *Геюшев Р. Работы Ширван-Шабранской экспедиции. / АО 1980 г. Москва: 1982.*
17. Дорн Б. Каспий. О находках древних русских Табаристан. / Приложение к XXVI тому. Записи Ак.наук. СПб., 1875, с.473-476.
18. Казвини Х. Услада сердца. / Пер. И.П.Петрушевского. Аз.ЕА Tarix İnstitutunun elmi arxivi, inv.531, s.21.
19. Крымский А.Е. Низами и его современники. Баку, Элм, 1981, 489 с.
20. Мусульманский мир. 950-1150./ Сборник. М.: ГРВЛ, 1981, 312 с.
21. Нуриев А. Средневековый город Барда /А.Нуриев. Баку: Элм, 1986, 26 с.
22. Нуриев А.Б., Мамедов А.М., Хасилов Ш.В. Раскопки в Барде. 1986 г. / Тезисы докладов конференции «Великий Октябрь и развитие археологической науки в Азербайджане». Баку, 1988, с.82

23. Цилосани Н.О. Исследования на предполагаемой местности Берда. / Приложение к I вып. IX тома. «Древности». Тифлис, 1882, с.495-498.
24. Wiet G. Soieries persanes. Institut Francais d'Archeologie Orientale, 1948, 251 p.

***Парвин АХАНЧИ***
***Кандидат философских наук по истории, доцент***
***Окюма АГАЕВА***

## ИССЛЕДОВАНИЯ АРХЕОЛОГИЧЕСКОГО И ЭТНОКУЛЬТУРНОГО НАСЛЕДИЯ ВОСТОЧНОГО РЕНЕССАНСА В АЗЕРБАЙДЖАНЕ
### *РЕЗЮМЕ*

*Ключевые слова:* эпоха Восточного Ренессанса, археологические исследования городов Азербайджана, Низами Гянджеви, «Хамсе», этнокультурное наследие

Творчество всемирно известного мыслителя Низами Гянджеви восходит к эпохе Восточного Ренессанса, характеризующийся развитием искусства, городской культуры в Азербайджане, ростом значения городов на торговых путях, признанием научной и литературной среды мировой интеллектуальной общественностью. В эпоху Возрождения Азербайджан, входящий в систему стран Востока, также добился больших успехов в политической, экономической и духовной жизни общества. Учитывая ограниченный объем статьи, авторы на примере некоторых древних городов Азербайджана, развивших богатую материальную и духовную культуру в исследуемый период, рассматривают археологические исследования, проведенные в Барде, Бейлагане, Гяндже, Шабране и ряд аспектов этнокультурного наследия азербайджанского народа в произведении «Хамсе» Низами Гянджеви.

***Parvin AHANCHI***
***PhD in History, docent***
***Hokuma AGAYEVA***

## STUDIES OF THE ARCHAEOLOGICAL AND ETHNO-CULTURAL HERITAGE OF THE EASTERN RENAISSANCE IN AZERBAIJAN
### *SUMMARY*

*Keywords:* Eastern Renaissance era, archaeological research of the cities of Azerbaijan, Nizami Ganjavi, "Khamse", ethno-cultural heritage

The work of the world-famous thinker Nizami Ganjavi dates back to the era of the Eastern Renaissance, characterized by the development of art, urban culture in Azerbaijan, the growing importance of cities on trade routes, and the recognition of the scientific and literary environment by the world intellectual community. Azerbaijan, comprised as part of the Eastern countries during the Renaissance period, also achieved great success in the political, economic and spiritual life of society. Taking into account the limited volume of the article, the authors, using the example of some ancient cities of Azerbaijan that developed a rich material and spiritual culture in the period under study, consider the archaeological research conducted in Barda, Beylagan, Ganja, Shabran and a number of aspects of the ethno-cultural heritage of the Azerbaijani people in Nizami Ganjavi's work "Khamsa".

***Daxil oldu: 29.07.2025-ci il***